AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

Əlyazması hüququnda

XƏZƏNGÜL SÜLEYMAN QIZI RAMAZANOVA

# ŞÜURLULUQ VƏ FƏALLIQ PRİNSİPİ İBTİDAİ SİNİFLƏRDƏ TƏLİMİN KEYFİYYƏTİNİ YÜKSƏLTMƏYİN VASİTƏSİ KİMİ

5804.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

A V T O R E F E R A T I

BAKI – 2014

Dissertasiya işi Gəncə Dövlət Universitetinin pedaqogika və təhsilin əsasları kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Akif Nurağa oğlu Abbasov,**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, Əməkdar müəllim*

**Rəsmi opponentlər:** **Mübariz Mirəziz oğlu Əmirov,**
*pedaqogika üzrə elmlər doktoru,*

**Hümeyir Hüseyn oğlu Əhmədov,**
*pedaqogika üzrə elmlər doktoru*

**Aparıcı təşkilat:** Sumqayıt Dövlət Universitetinin pedaqogika və psixologiya kafedrası

Müdafiə «_03_» __06__ 2014-cü ildə saat ____ da Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən FD 02.061 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az -1000, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 34

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» __________ 2014-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi:** **K. Quliyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı**. Ölkəmizdə təhsilin inkişaf perspektivləri hamını maraqlandırır. Onun taleyi respublikamızın Prezidentindən tutmuş sıravi müəllimə və təhsil işçisinə kimi hamını narahat edir. Təhsilin səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi qarşıda duran təxirəsalınmaz vəzifələrdəndir.

Ümummilli liderimiz Heydər Əliyev demişdir: "Təhsil sahəsində bizim son illər apardığımız islahatlar Azərbaycan məktəbinin, təhsilinin keyfiyyətini artırır və məktəblərdə, universitetlərdə müasir tələblərə uyğun təhsil verilir. Bunlar hamısı Azərbaycan xalqının sağlam, bilikli, yüksək ixtisasa malik olan gələcək nəsillərini hazırlayır".

Son vaxtlar təhsil analitikiləri digər sözlərlə müqayisədə "keyfiyyət" sözünə daha çox diqqət yetirirlər. Bu, səbəbsiz deyildir. Keyfiyyət təhsil müəssisələrinin əsas dəyərlərinin və təhsil ideallarının mühafizə olunub saxlanmasını nəzərdə tutur. Buraya daxildir: həqiqətin müstəqil axtarışı və biliklərin təmənnasız olaraq genişləndirilməsi.

Dünya təcrübəsi əsas götürülməklə və təhsil sistemimizdə vaxtilə mövcud olmuş və hazırda mövcud olan və təcrübədə özünü doğrultmuş iş üslubundan istifadə edərək, onun məzmunu təkmilləşdirilir, təhsilin keyfiyyətinin idarə edilməsinə xüsusi diqqət yetirilir, təlim prosesi optimallaşdırılır, pedaqoji kadr hazırlığı yaxşılaşdırılır. Lakin etiraf etmək lazımdır ki, bütün bunlara baxmayaraq, təhsilin keyfiyyəti konsepsiyası hələ ki yetərincə təşəkkül tapmamışdır: yanaşmalar müəyyənləşdirilir, keyfiyyətin göstəriciləri, cəhətləri formalaşdırılır, keyfiyyət meyarlarına aydınlıq gətirilir. Odur ki, hələ təhsil sistemində yeniləşmələrin aparılmasına, bəzi çatışmazlıqların aradam qaldırılmasına da ehtiyac vardır.

Təhsil sistemində keyfiyyətin idarə olunması mərkəzi yer tutmalıdır. Bu, bir həqiqətdir ki, təhsilin keyfiyyəti - idarəetmə obyektidir. Təhsildə keyfiyyət məsələsi hər bir zaman aktual olmuşdur. Başqa cür, sadəcə mümkün deyildir. Digər sahələrdə olduğu kimi, təhsil müəssisəsindən də həmişə keyfiyyət tələb edilir. Keyfiyyət məsələsi son vaxtlar daha çox müzakirə obyektinə çevrilmişdir.

Təhsilin keyfiyyəti dedikdə nə başa düşülməlidir? O, necə müəyyən edilir? Təhsilin keyfiyyətini necə idarə etmək mümkündür? Təhsili o zaman keyfiyyətli hesab etmək olar ki, nəinki şagirdlər, həm də təhsil prosesinin üzvləri olan müəllimlər də müəyyən nailiyyətlərə malik olsunlar.

Dərsin, tədris məşğələlərinin keyfiyyətinin yüksəldilməsində təlimin prinsiplərinin, o cümlədən elmilik, sistemlilik, əyanilik və s. prinsiplərin

rolu böyükdür. Bu prinsiplərin sırasında şüurluluq və fəallıq prinsipi özünəməxsus əhəmiyyət daşıyır. Təlimin şüurluluq və fəallıq prinsipi müəyyən tarixə malikdir. Bu prinsip pedaqogika tarixində doğmatik təlimin əleyhinə olaraq meydana gəlmişdir. Təlimin məqsədi kiçik yaşlı məktəblilərdə ətraf aləmə düzgün münasibətin yaradılması və müvafiq inam və əqidənin formalaşdırılmasıdır. Bu, bir həqiqətdir ki, şüurlu mənimsənilən biliklər insanın inamına və əqidəsinə çevrilir. Lakin təlim prosesində təhsilalanlara, o cümlədən ibtidai sinif şagirdlərinə yalnız biliklər verilir, inam və əqidəyə isə, hər bir şəxs özü müstəqil olaraq, yəni şüurlu yiyələnir. Şagirdlər tərəfindən materialın mənimsənilməsində şüurluluq müəllimin fəaliyyətindən çox asılıdır.

Şüurluluq və fəallıq prinsipi aşağıdakıları nəzərdə tutur: 1) şagirdlərin təlimə şüurlu münasibətini; 2) biliklərə yiyələnməkdə fəallığın yaranması; 3) nəzəri biliklərin təcrübədə tətbiqi üzrə bacarıqların formalaşdırılması. 4) şagirdlərin öz təhsillərinin qarşısında duran məqsədi bilmələri, onları yerinə yetirməyə cəhd. Buradan da təlimə şüurlu və fəal münasibət yaranır; 5) məqsədin həyata keçirilməsinin yol və vasitələrini bilmək; 6) elmin fakt və qanunauyğunluqlarını dərindən anlamaq, tədris materialının şagirdlərin şüurunda öz ifadəsini tapmasına nail olmaq; 7) biliklərin fəal mənimsənilməsi və onların yaradıcı tətbiqi.

Problemin aktuallığı nəzərə alınaraq, dissertasiya mövzusu «Şüurluluq və fəallıq prinsipi ibtidai siniflərdə təlimin keyfiyyətini yüksəltməyin vasitəsi kimi" müəyyənləşdirildi.

**Tədqiqatın obyekti** ibtidai siniflərdə təlim prosesidir.

**Tədqiqatın predmeti** ibtidai siniflərdə təlim prosesində müəllimin şüurluluq və fəallıq prinsipindən səmərəli şəkildə istifadə edərək təlimin səmərəliliyinə nail olması prosesidir.

**Tədqiqatım məqsədi** şüurluluq və fəallıq prinsipinin mahiyyətini, məzmununu müəyyənləşdirməkdən, təhsil prosesində həminn prinsipdən istifadə etməklə təlimim keyfiyyətinin yüksəldilməsinin imkanlarını üzə çıxarmaqdan və bu imkanların həyata keçirilməsinin səmərəli yollarını müəyyənləşdirməkdən ibarətdir.

Tədqiqatla bağlı irəli sürülən **fərziyyə**:

-təlimin şüurluluq və fəallıq prinsipinin mahiyyəti, məqsədi və əhəmiyyəti sinif müəllimləri tərəfindən aydın təsəvvür olunarsa, bu məsələ didaktikanın ən mühüm vəzifələrindən biri kimi nəzərdən keçirilərsə;

-ayrı-ayrı mövzuların, tədris materialının öyrənilməsi zamanı kiçik yaşlı məktəblilərin mexaniki əzbərçiliyinin qarşısı alınarsa, tədrisdə şüur-

luluq və fəallıq prinsipindən səmərəli şəkildə istifadə olunarsa, təlimin keyfiyyəti yüksələr.

Tədqiqatın məqsədinə və işçi fərziyyəsinə əsasən aşağıdakı **vəzifələr** irəli sürülmüşdür:

- təlimin prinsipləri sırasında şüurluluq və fəallıq prinsipinin yerini və mövqeyini müəyyənləşdirmək;
- şüurluluq və fəallıq prinsipinin mahiyyətinə aydınlıq gətirmək, dərsdə bu prinsipdən istifadənin vacibliyini əsaslandırmaq;

-problem baxımından pedaqoji və metodik ədəbiyyatın, ibtidai siniflər üzrə fənn kurikulumlarının və təhsil standartlarının təhlilini aparmaq;

-şüurluluq və fəallıq prinsipindən istifadə etməklə təlimin keyfiyyətinin yüksəldilməsi imkanlarını araşdırmaq;

-ibtidai siniflərdə fənlərin tədrisi zamanı şüurluluq və fəallıq prinsipindən istifadənin səmərəli yollarını aşkara çıxarmaq;

-müəllimin pedaqoji ustalığını təlimin keyfiyyətini yüksəltməyin şərti kimi nəzərdən keçirmək;

-pedaqoji eksperimentin nəticələri barədə təsəvvür yaratmaq.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və proseslərin dərk olunması və dəyişdirilməsi məqsədilə tətbiq olunan nəzəri müddəaların, metod və vasitələrin məcmusu təşkil edir.

Araşdırmalar zamanı aşağıdakı **tədqiqat metodlarından** istifadə olunmuşdur:

1) *Nəzəri təhlil və tərkib*. Problemin tədqiqi vəziyyətinə aydınlıq gətirmək məqsədilə pedaqoji və metodik ədəbiyyat, ibtidai siniflərdə fənn kurikulumları və təhsil standartları araşdırılmış və təhlil edilmişdir

2) *Pedaqoji müşahidə*. Tədqiqatla əlaqədar Gəncə şəhər 5, 18 nömrəli, Zaqatala şəhər 1 və 2 nömrəli, Qax rayonu 2 nömrəli məktəblərində müxtəlif fənlər üzrə dərslər müşahidə olunmuş, onların təhlili aparılmış və dissertasiyada əks etdirilmişdir.

3) *Pedaqoji müsahibə* ibtidai sinif müəllimləri və kiçik yaşlı məktəblilər, məktəb rəhbərləri ilə keçirilmişdir.

4) *Sənədlərin öyrənilməsi*. Məktəblərin, ibtidai sinif müəllimlərinin sənədləri, şagirdlərin yaradıcılıq məhsulları və s. öyrənilmiş, təhlil olunmuşdur.

5) *Pedaqoji eksperiment*. Tədqiqat zamanı eksperimentin aşağıdakı mərhələlərindən istifadə olunmuşdur: müəyyənedici, öyrədici və yoxlayıcı. Eksperiment 2007-2013-cü illərdə Gəncə şəhər 5, 18 nömrəli, Zaqatala şəhər 1 və 2 nömrəli, Qax rayonu 2 nömrəli məktəblərində aparılmışdır.

6) *Riyazi və statistik metodlar*. Sorğu və eksperimental metodlara əsasən əldə edilən məlumatların sistemləşdirilməsi və qruplaşdırılması nəticəsində ümumiləşdirmələrin aparılması, öyrənilən pedaqoji hadisə və proseslər arasında kəmiyyət asılılıqlarının müəyyənləşdirilməsi mümkün olmuşdur. Bu metodlar eksperimentin göstəricilərinin qiymətləndirilməsinə, nəticələrin etibarlılığına, nəzəri ümumiləşdirmələrin aparılmasına şərait yaratmışdır.

**Tədqiqatın elmi yeniliyi**. İbtidai siniflərdə şüurluluq və fəallıq prinsipindən istifadə etməklə təlim prosesinin keyfiyyətini artırmaq üzrə işin nəzəri və praktik məsələləri bir sistem halında əks etdirilmiş, həmin istiqamətdə sinif müəlliminin pedaqoji ustalığının roluna aydınlıq gətirilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Problemlə bağlı iş sistemi, əsas elmi ideyalar, tədqiqatın nəticələri ibtidai siniflərdə şüurluluq və fəallıq prinsipindən istifadə etməklə təlim prosesinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsində, müəllimlərin pedaqoji ustalığının və metodik hazırlığının artırılmasında sinif müəllimlərinə kömək edəcəkdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** bununla müəyyən olunur ki, əsərdə irəli sürülən elmi müddəalar pedaqogika nəzəriyyəsini yeni ideyalarla zənginləşdirəcək, ibtidai siniflərdə şüurluluq və fəallıq prinsipindən istifadə etməklə təlim prosesinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi işinin elmi əsaslar üzərində qurulmasına imkan verəcəkdir.

**Tədqiqatın etibarlılığı**. Alınan nəticələrin etibarlılığına tədqiqatın metodoloji əsası, tədqiqatın predmetinə, məqsəd və vəzifələrinə əsasən seçilmiş tədqiqat metodları kompleksi, tədqiq olunan prosesləri keyfiyyətcə səciyyələndirmək məqsədilə zəruri sayılan empirik materialların müəyyənləşdirilməsi, toplanmış materialların təhlili təminat verir.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır**:

1. Təlimin keyfiyyəti və səmərəliliyi müəllimin öz peşəsinə bağlılığından, onun təlimin prinsiplərindən, xüsusən şüurluluq və fəallıq prinsipindən hansı səviyyədə istifadə etməsindən xeyli dərəcədə asılıdır.

2. Kiçik yaşlı məktəblilərin şüurluluğuna və fəallığına nail olduqda təlim prosesinin optimallaşdırılması və biliklərin şagirdlər tərəfindən yüksək səviyyədə mənimsənilməsi mümkün olur.

**Tədqiqatın nəticələrinin tətbiqi**. Təklif olunan iş sistemi Zaqatala şəhər 5 nömrəli və Şəki rayonu Böyük Dəhnə kənd məktəblərində tətbiq edilmişdir. Dissertasiyada nəzərdən keçirilən problemlə əlaqədar Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının məsləhət gördüyü jurnallarda 6 və xarici ölkədə 1 məqalə nəşr olunmuşdur.

İddiaçı, həmçinin Beynəlxalq və respublika elmi konfranslarında məruzələrdə çıxış etmiş və məruzənin tezislərinin nəşrinə nail olmuşdur.

**Dissertasiyanın quruluşu**. Dissertasiya girişdən, 9 yarımfəsli özündə birləşdirən iki fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı əsaslandırılır, obyekti və predmeti, məqsədi, elmi fərziyyəsi, vəzifələri və metodoloji əsası açıqlanır, həmçinin istifadə olunmuş tədqiqat metodları, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar və alınan nəticələr barədə yığcam məlumat verilir.

Dissertasiyanın birinci fəsli "**Şüurluluq və fəallıq prinsipindən istifadə etməklə təlimin keyfiyyətini yüksəltmək probleminin nəzəri və ümumi məsələləri**" adlanır. Bu fəsil beş yarımfəsildən ibarətdir. Fəslin "*Təlimin şüurluluq və fəallıq prinsipinin mahiyyəti, məzmunu*" adlı birinci yarımfəslində göstərilir ki, **şüurluluq** – birincisi, insan fəaliyyətinin məqsədini və istiqamətini tənzimləyən xassələrdir. İkincisi, insanın özünü və dünyanı dərk etmək və dəyişdirmək üzrə onun fəaliyyətində təzahür edən öz iradəsini və mübarizə əzmini tənzimləyən xassələridir. İnsan fəaliyyətinin məqsədini və istiqamətini müəyyən etməyə imkan verən və eyni zamanda iradəni və mübarizə əzmini tənzimləyən şüurluluğun bu iki tərəfi bir-birilə sıx tellərlə əlaqədardır. Onlar şəxsiyyətin təbiəti və cəmiyyəti dərk etməyə və dəyişdirməyə yönəlmiş bütün fəaliyyətini nizama salır və nəzarətdə saxlayır.

Dissertasiyada şurluluq və fəallıq prinsipinin mahiyyətini aydınlaşdırmazdan əvvəl fəallıq anlayışı ilə sıx bağlı olan «fəal», «fəaliyyət», «fəaliyyətli» sözlərinə aydınlıq gətirilir. Eyni zamanda «şüurluluq» anlayışı ilə bilavasitə bağlı olan «şüur», «şüurlu» anlayışları da nəzərdən keçirilr. Bütün bu məsələlər barədə dissertasiyadan ətraflı məlumat almaq olar. Y.A.Komenski hələ orta əsrlərin sonlarında əzbərçiliyin və passivliyin əleyhinə çıxmış, şüurluluq prinsipini dəyərləndirmişdi. O, əzbərçilik və doğmatik təlimi tənqid edərək yazırdı ki, tədris edilən bütün şeyləri ağlın dəlilləri ilə elə əsaslandırmaq lazımdır ki, nə şübhə üçün, nə də unutqanlıq üçün heç bir yer qalmasın. Böyük pedaqoqun sözlərində dərin həqiqət vardır. Əzbərləmək o demək deyildir ki, şagird müvafiq biliyə yiyələnib. Hər hansı material bir neçə dəfə oxunduqdan sonra yadda saxlanılır. Lakin o material, məlumat ağlın, düşüncənin süzgəcindən keçmədiyindən hafizədə müvəqqəti qalır.

Şüurluluq və fəallıq prinsipi K.D. Uşinskinin didaktik sistemində də mühüm yer tuturdu. Böyük pedaqoq bu prinsipə yüksək qiymət verərək, təhsilalanların məntiqi təfəkkürünə tələbləri artırmağı və təlim prosesində şagirdləri müstəqil düşünməyə təhrik edən çox saylı təmrinlər üzərində çalışdırmağı məsləhət görürdü.

Mövcud ədəbiyyatın araşdırılmasından görünür ki, biliklərin şüurlu mənimsənilməsinin bir sıra əlamətləri vardır.

Təlim prosesində ilk növbədə biliklərin şüurlu mənimsənilməsinin daha ümumi əlamətləri diqqət mərkəzində dayanmalıdır. Sinif müəllimi təlimin şüurluluq və fəallıq prinsipinin qaydalarına bələd olmalıdırlar. Eksperimentə cəlb edilmiş müəllimlərlə bu istiqamətdə iş aparılırdı. Şagirdlərə həmişə onların qarşısında dayanan təlim vəzifələrinin mənası aydın olmalıdır. Onlar təlimin məqsədindən xəbərdar olmalıdırlar. Dərs problemin qoyuluşundan başlanmalı, məktəblilərin əvvəlki təcrübəsinə, onların vaxtilə qazandıqları və hazırda mövcud olan biliklər sisteminə əsaslanmalıdır. Müəllim müvafiq priyomlardan faydalanmalıdır ki, məktəblilərdə öyrənilən materiala maraq oyada bilsin. Şagirdlərin fəaliyyətinin ən mühüm şərti təlim prosesində özünənəzarət və özünüqiymətləndirmədir.

Məktəblilərə təkcə yeni informasiya barədə məlumat toplamaq deyil, həm də təhsil almaq maraqlıdır, onlara idrak prosesinin özü maraqlı olmalıdır. Bu qaydaların gözlənilməsi formal biliklərin qazanılmasına deyil, inam və əqidənin formalaşdırılmasına imkan verir.

Pedaqoqların əksəriyyəti təlimin şüurluluq və fəallıq prinsipinə xüsusi yer ayırır və bu prinsipin məzmununa, əhəmiyyətinə və tətbiqinin başlıca istiqamətlərinə aydınlıq gətirirlər. Məktəblilər tərəfindən tədris materialının mənimsənilməsində şüurluluq müəllimin fəaliyyətindən çox asılıdır. Müəllim şagirdlərin diqqətinin fəallaşdırılmasını təmin etməyən ikinci dərəcəli məsələlərə deyil, onda maraq doğuran, həyatda, gündəlik fəaliyyətində ona lazım ola biləcək problemlərə yönəltməlidir.

Psixoloqların tədqiqatlarından görünür ki, məktəblilərin fəallığının ən mühüm cəhəti təlim prosesində özünənəzarət və özünəqiymətin mövcudluğudur. Odur ki, müəllim belə fəaliyyətə tələbatı və vərdişləri formalaşdırmalıdır

Fəallıq dedikdə, müəllimin təlim və tərbiyənin vəzifələrini yerinə yetirməyə istiqamətlənmiş əqli; mənəvi, iradi və fiziki qüvvələrinin səfərbərliyə alınması anlaşılır. Şüurluluq məktəblilərdə «fiziki təmrinlərlə məşğul olmaq nə üçün lazımdır?» sualına cavab verən biliklər, əqidələr sisteminin formalaşdırılmasını nəzərdə tutur.

Araşdırmalardan görünür ki, ibtidai siniflərdə təlim prosesində, ayrı-ayrı mövzuların öyrənilməsi zamanı təlimin prinsiplərinin diqqət mərkəzinə gətirilməsi, xüsusilə də şüurluluq və fəallıq prinsipindən faydalanmaq bir tərəfindən kiçik yaşlı məktəblilərin biliklərə yiyələnmələrini, mənimsəməni asanlaşdırır və biliklərin yadda möhkəm saxlanmasını, həyati bacarıqların əldə olunmasını və onların tətbiqini təmin edir, digər tərəfdən təlim prosesinin optimallaşdırılmasına və keyfiyyətinin yüksəldilməsinə kömək göstərir.

Dissertasiyanın birinci fəslinin ikinci yarımfəsli "*Problemin psixoloji məsələləri*" adlanır. İstər təlimin keyfiyyətinin yüksəldilməsi, istərsə də təlimdə kiçik yaşlı məktəblilərdə şüurluluq və fəallığın inkişaf etdirilməsi, başqa sözlə, dərslərdə, müxtəlif fənlər üzrə məşğələlərdə təlimin şüurluluq və fəallıq prinsipinin diqqət mərkəzində saxlanması psixologiya elmindən kənarda nəzərdən keçirilə bilməz.

Tədris materialının şüurlu öyrənilməsi kiçik yaşlı məktəblilərin həmin materiala marağından, ümumiyyətlə, təlimə, dərsə, biliklərə yiyələnməyə həvəsindən xeyli dərəcədə asılıdır. Bu həvəs, bu maraq olduqda tədris materialına, mövzuya yanaşma şüurlu şəkil alacaqdır. Yəni kiçik yaşlı şagird proqram materialını əzbərləməyə çalışmayacaq, səy göstərəcək ki, başlıca ideyanın nədən ibarət olduğunu anlasın, suallar meydana çıxanda onlara cavab verə bilsin. Əla və yaxşı bilik nümayiş etdirən şagirdlər çox yaxşı anlayırlar ki, mexaniki əzbərlənən material tez bir zamanda unudulur, belə materialın tətbiqi də mümkün olmur. Sinif müəllimi də, kiçik yaşlı məktəblilər də başa düşürlər ki, təlimin keyfiyyətinin yüksəldilməsinə materialı əzbərləməklə deyil, onu şüurlu şəkildə öyrənməklə nail olmaq mümkündür. Yalnız bu halda şagirdlərin fəallığı təmin olunur.

Proqram materialının, ayrı-ayrı mövzuların şüurlu mənimsənilməsində, məktəblilərin idrak fəallığının, müstəqilliklərinin və təşəbbüskarlıqlarının inkişaf etdirilməsində və təlimin keyfiyyətinin yüksəldilməsində maraq özünəməxsus rol oynayır. Psixologiyadan dərsliklərdə və tədqiqat əsərlərində maraqdan söz açılarkən onun insanın, o cümlədən kiçik yaşlı məktəblilərin ətraf aləmi dərk etməyə, bu və ya digər fəaliyyət növünə, müvafiq bilik sahəsinə yiyələnmələrində, özü də müəyyən dərəcədə yönəlmələrində öz əksini tapan fərdi psixoloji xüsusiyyət anlaşılır.

Dissertasiyada professorlar Ə.C.Bayramov və Ə.Ə.Əlizadənin maraqla bağlı fikirləri və marağa verdikləri təriflə tanış olmaq mümkündür.

Əsərdə, həmçinin məzmun nöqteyi-nəzərindən motivlərin səciyyəsinə aid olan məsələlər və idrak motivlərinin növləri üzərində dayanılır. Diqqət yetirilən məsələlərdən biri də tələbatlardır. Fərd öz tələbatlarını, o

cümlədən təlimə və biliyə olan tələbatlarını təmin etməlidir. Hər bir şəxs, məktəbli təlimə olan tələbatlarını təmin etmək üçün müvafiq üsul və vasitələr axtarır. Şəxsiyyətin tələbatları ilə onun fəaliyyətinin məqsədi arasında əlaqə motivlər vasitəsilə reallaşır. Sinif müəllimləri və valideynlər şagirdlərdə diqqətin inkişafına qayğı ilə yanaşmalıdırlar. Dissertasiyada prof. Ş.S.Ağayevin kiçik yaşlı məktəblilərdə diqqətin inkişaf etdirilməsi ilə bağlı fikirlərinə yer ayrılmışdır.

Tədris materialının şüurlu mənimsənilməsi və fəallığın təmin olunması eyni zamanda əsas hafizə proseslərinin hansı səviyyədə müəllim və valideyn tərəfindən nəzərə alınmasından, o cümlədən öyrənmənin necə təşkil olunmasından asılıdır.

Şüurlu mənimsəmədən danışdıqda bu sahədə təfəkkürün oynadığı rolu diqqət mərkəzinə gətirmək lazım gəlir. Məktəbli məhz təfəkkür əməliyyatlarının köməyilə tədris materialını öz malına çevirir, təhlil, tərkib, müqayisə, ümumiləşdirmə və konkretləşdirməyə müraciət edir, təsnifat aparır. Təlim zamanı kiçik yaşlı məktəblilərdə fikri əməliyyat formalaşmağa başladığından onlar təhlil, tərkib, müqayisə, ümumiləşdirmə, mücərrədləşdirmə, sistemləşdirmə, tutuşdurma, qruplaşdırma və müəyyən nəticəyə gəlmə kimi çox dəyərli fikri əməliyyatları aparmağı bacarırlar.

Fəslin üçüncü yarımfəslinə verilən ad belədir: "*Elmi-pedaqoji ədəbiyyatda və «Pedaqogika» dərsliklərində təlimin şüurluluq və fəallıq prinsipinin, təlimin keyfiyyətinin yüksəldilməsi məsələsinin qoyuluşu*". Yarımfəsildə göstərilir ki, müəllim təlimin prinsiplərini düzgün tətbiq etdikdə kiçik yaşlı məktəblilərdə tədris materialına maraq oyanır, eyni zamanda təlimin keyfiyyəti yüksəlir, təlimin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici funksiyaları uğurla həyata keçir. Tədqiqatın gedişində «Azərbaycan dilinin izahlı lüğəti», pedaqoq alimlərin dərslikləri və pedaqoji-metodik əsərləri də nəzərdən keçirilmişdir.

Təlimin keyfiyyətinin yüksəldilməsi problemlərinə həsr olunmuş ədəbiyyatlar da araşdırılmışdır. R.H.Məmmədzadənin "Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi" monoqrafiyasında respublikanın təhsil sistemində keyfiyyət, onun hazırkı durumu, mövcud nöqsanlar, onların səbəbləri və aradan qaldırılmasının mümkün yolları diqqət mərkəzinə gətirilir. Təhsildə keyfiyyətə nail olunmasında məktəbdaxili idarəetmənin vəziyyəti təhlil süzgəcindən keçirilir.

Monoqrafiyada keyfiyyətin əldə olunmasında şagird və müəllim əməyinin stimullaşdırılmasının əhəmiyyətinə münasibət bildirilir, maraqlı metodikalar məsləhət bilinir. Bütün bunlarla yanaşı, məktəb rəhbərinin bu istiqamətdə zəruri nəticələrə nail olmasından ötrü təhsil menecmenti və

marketinqinin roluna dair məktəb təcrübəsi konkret nümunələrə əsasən açıqlanır.

Fəslin dördüncü yarımfəsli "*Təlimin keyfiyyətinin yüksəldilməsi mühüm pedaqoji problem kimi*" adlanır. Hazırda təhsilin, həmçinin təlimin keyfiyyəti cəmiyyətin inkişafına şərait yaradan başlıca göstəricidir. Elə bu səbəbdən də yenidən müstəqilliyimizə qovuşandan sonra təhsilin, eyni zamanda təlim və tərbiyənin keyfiyyətinə nail olmaq istiqamətində səylər səfərbər edilmişdir. Məktəbin qarşısında dayanan məqsədlərdən əhəmiyyətlisi və mürəkkəbi təhsildə keyfiyyətin əldə edilməsidir. İbtidai siniflərdə təlimin keyfiyyəti anlayışı, bir qayda olaraq qazanılmış nailiyyətin və sinifdaxili idarəetmə sisteminin fəaliyyəti ilə bağlıdır. Təhsilin keyfiyyəti təlimin nəticələrini səciyyələndirən zəruri xüsusiyyətlərin məcmusu kimi nəzərdən keçirilir. Həmin nəticələr cəmiyyəti, sifarişçiləri və şagirdlərin tələbatlarına cavab verməlidir.

Birinci fəslin "*Şüurluluq və fəallılıq prinsipi təlimin səmərəliliyini artıran prinsip kimi*" adlanan beşinci yarımfəslində aşağıdakı məsələlərə diqqət yetirilir: Təlim prosesinin optimallaşdırılması, intensivləşdirilməsi, təlimin keyfiyyətinin yaxşılaşdırılması, təhsilalanların biliklərə asanlıqla və yüksək səviyyədə yiyələnmələri, onların idrak fəallıqlarını, təfəkkür müstəqilliklərini artırmaq baxımından şüurluluq və fəallıq prinsipindən istifadə edilməsi səmərəli nəticələr verir.

Bu prinsipin tələbi belədir ki, müəllim idrakdakı bütün mürəkkəb əlaqələr sisteminin hər bir məktəbli tərəfindən başa düşülməsi kimi daxili prosesə nüfuz etməyə malik olsun. Təlim prosesində təhsilalana məlum olmayanla məlum olan arasında məntiqi əlaqənin yaradılması son dərəcə vacibdir. Qazanılmış biliklərlə əldə ediləcək biliklər arasında məntiqi əlaqə olmadıqda təlimin, mənimsəmənin şüurluluğundan söhbət gedə bilməz. Bu və ya digər fənnə aid mövzuların şüurlu şəkildə öyrənilməsi yeni biliklərin artıq mövcud olan bilik, məlumat və təsəvvürlər ehtiyatı ilə müqayisəsini, təsnifatının aparılmasını, fənlərarası və fəndaxili əlaqələrin həyata keçirilməsini təmin edir.

Şagird tədris materialını əzbərlədikdə onu uzun müddət yadında saxlaya bilmir, yaxud təcrübədə tətbiqinə nail olmur. Çünki mövzu onun tərəfindən mexaniki şəkildə, başqa sözlə təfəkkürün, şüurun malına çevrilmədən əzbərlənmişdir.

Prinsipin adında «şüurluluq» və «fəallıq» sözləri yanaşı işlənmişdir. Bu, o deməkdir ki, bu anlayışlar bir-biri ilə sıx surətdə bağlıdır və biri digərini tələb edir. İnsan müəyyən bir məsələni şüurlu surətdə dərk etdikdə fəal olur. Başqa sözlə, proqram materialı şüurlu şəkildə öyrənildikdə şagird,

yaxud tələbə onu öz sözləri ilə, düşünə-düşünə, həyatdan nümunələr gətirməklə danışır, dinləyicilərə çatdırır. Şüurlu mənimsənildiyindən mövzuya aid suallar verildikdə onlara ağlın gücü ilə, məntiqlə cavab tapır, materialı mexaniki əzbərləmiş şagirddən fərqli olaraq, çaşmır, özünü itirmir, öyrəndiklərinin təcrübəyə tətbiqi də mümkün olur. Məhz belə təhsilalanın biliyi həmişə yüksək qiymətləndirilir, o, əlaçı şagird, tələbə olur.

Dissertasiyanın ikinci fəsli "**Təlim prosesində şüurluluq və fəallıq prinsipindən istifadə etməklə təlimin keyfiyyətinin yüksəldilməsi imkanları və bu imkanların həyata keçirilməsinin səmərəli yolları**" adlanır. Bu fəsil dörd yarımfəsildən ibarətdir. Fəslin "*Ana dili fənninin problemb baxımından imkanları*" adlı yarımfəslində təhsil siyasətimizin qarşısında duran əsas vəzifələrdən danışan ölkə Prezidenti İlham Əliyevin aşağıdakı fikirləri diqqət mərkəzinə gətirilir: «Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı da möhkəmlənir».

Yarımfəsildə qeyd olunur ki, ibtidai siniflərdə yeni məzmuna keçid özünü doğruldur. Kurikulumlarla işin səmərəli təşkili, I-IV siniflərdə təhsil standartlarının tətbiqi təlim prosesinin optimallaşdırılmasına, kiçik yaşlı məktəblilərin yaradıcı və idrak fəallığının inkişaf etdirilməsinə imkan verir, onların müstəqilliyini və təşəbbüskarlığını artırır. Müəllim üçün I sinfin «Ana dili» dərsliyinə metodik rəhbərlikdə fənnin tədrisində şagirdlərin şüurluluğunun və fəallığının inkişaf etdirilməsi, bu məqsədlə interaktiv təlim metodundan istifadənin vacibliyi əsaslandırılır. Vəsaitdə təlim üçün son dərəcə vacib olan «müəllim tərəfindən şüurlu surətdə idraki problem situasiyanın yaradılması», «şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması», «yeni və zəruri olan biliklərin müstəqil kəşfi», habelə həmin «biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması» diqqət mərkəzinə gətirilir ki, bu, dərsdə şüurluluq və fəallığı təmin edən məsələlərdir. Fəal təlim «öyrənməyi öyrətmək» prinsipinə istiqamətlənmişdir, biliklərin müstəqil şəkildə qazanılmasına çox böyük kömək göstərir. «Öyrənməyi öyrətmək» isə, hazırda tədris-tərbiyə prosesinin qarşısında dayanan çox mühüm vəzifələrindəndir.

Son zamanlar fəal təlimin üstünlüklərindən yazan bəzi alimlər və bəzi praktik müəllimlər ənənəvi təlimi yerli-yersiz tənqid edir, onun bəzi üstün cəhətlərini görmürlər. Halbuki son yüz ildə bu ənənəvi təlimlə dərs oxuyan və dünyada şöhrət tapan on minlərlə mütəxəssis – alim, yazıçı, bəstəkar, rəssam, mühəndis, neftçi, dövlət xadimi, memar yetişib. Odur ki, fəal

təlimin üstünlükləri nə qədər çox olsa da, sinif müəllimləri yeri gəldikcə həm də ənənəvi metodların imkanlarından bəhrələnməlidirlər.

I sinfin ana dili fənni üzrə metodik vəsaitdə əsas standartlara da münasibət bildirilmişdir ki, bu barədə dissertasiyada ətraflı bəhs edilir. Həmin əsas standartların reallaşdırılması, təbii ki, kiçik yaşlı məktəblilərdə şüurluluğu inkişaf etdirmək və bu istiqamətdə məqsədyönlü, sistemli, ardıcıl iş aparmaq nəticəsində mümkündür. Bütün bunlar - şüurluluğun təmin olunması eyni zamanda fəallıq üçün əsas olur.

Tədris materialının şüurlu surətdə mənimsənilməsi və bunun fəallıqla nəticələnməsi müəllimin dərslik üzərində işinin səmərəliliyindən çox asılıdır. Şagirdlərdə təlimə marağın oyadılmasında düzgün qiymətləndirmənin rolu da böyükdür. Məktəblinin əməyi lazımi dəyər aldıqda o, səyli və təşəbbüskar olur, çalışır ki, başqalarından fərqlənsin, valideyninin və müəlliminin etimadını doğrultsun. Bunun üçün isə bilir ki, fəal olmalıdır, həm təlim prosesində, ayrı-ayrı fənlərin öyrənilməsi zamanı, həm də sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkili və həyata keçirilməsi zamanı. Qiymətləndirmə obyektiv və ədalətli aparılmalı, kiçik yaşlı məktəblilərdə müsbət hisslər oyatmalıdır.

Məlum olduğu kimi, birinci sinifdə məktəblilərin biliyinə, şüurluluq və fəallıq səviyyəsinə qiymət verilməsi «kəmiyyət» üsullarına əsasən aparılmır. Qiymətləndirmə məktəblidən ötrü özünüqiymətləndirmə və özünənəzarətin inkişafına təsir göstərən mühüm amildir. Qabaqcıl müəllimlər bu məqsədlə dərsdə «keyfiyyətcə qiymətləndirmə» metodlarına müraciət edirlər.

Hazırda ümumi təhsil sistemində məktəblilərin biliyinin, bacarıq və vərdişlərinin, şüurluluq və fəallıq səviyyəsinin qiymətləndirilməsi zamanı qarşılıqlı qiymətləndirmə və özünüqiymətləndirmə metodlarına da geniş yer verilir. Özünüqiymətləndirmə bacarıq və vərdişlərini formalaşdırmaq və inkişaf etdirmək məqsədilə təcrübəli sinif müəllimləri qiymətləndirmənin şagirdlərin özləri tərəfindən aparılmasına çalışırlar. Məktəblilərin öz sinif yoldaşlarının təlim fəaliyyətini qiymətləndirməsi təcrübəsindən də istifadə edilir.

İkinci fəslin ikinci yarımfəslində "*Həyat bilgisi fənninin problem baxımından imkanları*" üzərində dayanılır. Eksperimentə cəlb edilmiş siniflərdə həyat bilgisi fənni üzrə məşğələlərdə də müəllimlər təlimin şüurluluq və fəallıq prinsipinin səmərəli tətbiqi sahəsində də müsbət təcrübə toplamışdılar.

Müəllim üçün vəsaitdə irəli sürülmüş belə bir fikir xüsusilə önəmlidir: "Təlimin ilk günlərindən o (şagird – X.R), müəllimin söylədiklərini

ehkam kimi qəbul etməməli, gördüyü, eşitdiyi hər şeyə öz ağlı və düşüncələrinin prizmasından baxmağı, aldığı hər informasiyanı tədqiq etməyi, araşdırmağı və müqayisə aparmağı öyrənməlidir". Bu fikir bilavasitə dissertasiyada araşdırdığımız "şüurluluq və fəallığ"ın təmin olunmasını nəzərdə tutur.

I sinfin «Həyat bilgisi» dərsliyində 8-ci mövzu «Ailəmiz» adlanır. Müəllim dərsin qarşısında qoyulan məqsədi təxminən belə müəyyənləşdirir: «Məktəbli oğlan və qızlara: 1) ailənin üzvləri və qohum-əqrəba ilə qarşılıqlı münasibətdə səmimi olmağı; 2) böyüyə hörmətli və qayğılı münasibət; 3) balacalara qayğı və nəvaziş hissləri tərbiyə etmək; 4) qohumluq münasibəti ifadə edən sözlərin mənasını aydınlaşdırmaq.

Dərsdə aşağıdakı iş formalarına müraciət olunur: böyük və kiçik qruplarla iş. Fərdi iş. İş üsulları: müzakirə. Əyani vəsaitlər: şəkil və plakatlar, dərslik, iş dəftəri, iş vərəqləri.

Dərs aşağıdakı ardıcıllıqla gedir: I mərhələ. Motivasiya. Problemin qoyulması. Müəllim sinfə müraciətlə soruşur:

-Ailə hansı tərkibdən ibarət olur?

-Ailənin başçısı, adətən kim olur?

Kiçik yaşlı məktəblilər qeyd olunan suallara cavab verməyə çalışırlar.

Tədqiqat sualı aşağıdakı şəkildə olur: Ailə dedikdə nə anlaşılır?

Dərsin ikinci mərhələsində diqqət aşağıdakı məsələlərə yönəldilir: Tədqiqatın aparılması. Müəllim şagirdlərin sayından asılı olaraq, qrupları təşkil edir. Sonra həmin qruplara iş vərəqləri paylayır. Məktəblilər bu vərəqlərə əsasən, müvafiq tapşırıqlar alırlar. Həmin tapşırıqlara aiddir: şəkillərdə ailənin üzvlərini ardıcıllıqla düzün; atanın qardaş və bacısına necə müraciət olunur; bəs ananın bacısına və qardaşına? Bunları deyin və yazın.

Dərsin üçüncü mərhələsində informasiya mübadiləsi diqqət mərkəzində dayanır. Qrupların hər birindən bir nəfər işləri təqdim edir. Qruplar bir-birinin işinə qiymət verirlər.

Dərsin dördüncü mərhələsi informasiyanın müzakirəsinə həsr edilir. Məktəbli oğlan və qızlara müzakirə məqsədilə aşağıdakı suallar verilir:

-Ailə üzvləri bir-biri ilə necə rəftar etməlidirlər?

-Qohumlarla münasibət hansı şəkildə olmalıdır?

Şagirdlərin cavabları dinlənilir.

Dərsliyin 20-21-ci səhifələrində verilmiş materiallarla tanışlıq şagirdlərin fəallığı şəraitində həyata keçirilir. Dərslikdəki şəkillər sözlə ifadə olunduğundan maraq doğurur. Mətni müəllim tərəfindən oxunur. Daha

sonra mətnə əsasən kiçik yaşlı məktəbliləri maraqlandıran suallara cavab verilir. 20-ci səhifənin sonundakı suallara şagirdlər öz münasibətlərini bildirirlər.

Dərsin beşinci mərhələsində tətbiqetmə həyata keçirilir. Müvafiq suallar əsas götürülməklə, həmçinin test tapşırığı ilə məktəblilərin ailə üzvləri və qohumlarla əlaqədar bilik və bacarıqları möhkəmləndirilir.

Dərsin altıncı mərhələsi nəticə və qiymətləndirməyə həsr edilir. Şagirdlərə bir daha çatdırılır ki, ailə üzvləri onların, hər bir şəxsin çox yaxın və əziz adamlarıdır. Ailədə qohumluq münasibətləri zəminində baba, nənə, ata, ana və b. adamlar olur. Ailə üzvləri bir-biri ilə mehriban, səmimi dolanmalı, bir-birinə qayğı, nəvaziş göstərməli, bir-birinin sevincinə və kədərinə şərik olmalıdırlar. Ailədə hərənin öz işi olmalı, hərə öz yerini bilməlidir. Ailə üzvləri bir-birinin taleyi üçün narahat olmalı, biri digərinə dayaq durmalıdırlar. Hər bir qrupun fəaliyyəti müəyyən meyarlara əsasən qiymətləndirilir.

Fəslin üçüncü yarımfəsli "*Şüurluluq və fəallıq prinsipindən istifadə etməklə riyaziyyat təliminin keyfiyyətinin yüksəldilməsi*" adlanır. Yarımfəsildə diqqət aşağıdakı məsələlərə yönəldilir: I-IV siniflərin riyaziyyat dərslərində kurikulumun tələbləri nəzərə alınır, həmin sahədə təcrübə də toplanmışdır. Öyrədilən materialın dərk olunması, yaradıcı tətbiqi diqqətdən yayınmamalıdır. Riyaziyyat fənn kurikulumunda (tədris proqramında) nəzərdə tutulan məzmun xətlərinin nisbəti təlim prosesində gözlənilməlidir. Buna uyğun olaraq, fəaliyyət xətləri də tədrisdə nəzərə alınmalıdır. Son illərin təcrübəsi göstərir ki, I-IV sinif şagirdlərinin qavrama imkanları, sərbəst düşünmə və işləmə bacarıqları əvvəlki illərə nisbətən çox üstündür. Bunu nəzərə alaraq, kurikulumun quruluşu, həcmi, məzmunu və elmi səviyyəsi yüksəldilmişdir. İbtidai siniflərdə riyaziyyat dərslərinin müşahidəsi göstərir ki, riyaziyyat fənn kurikulumu şagirdlərin inkişaf səviyyəsinə uyğundur. Kurikulumda nəzərdə tutulan materialların (hesabın) cəbr və həndəsə, ehtimal və statistika elementləri ilə birləşdirilməsi onun elmi səviyyəsini artırmış, daha işlək vəziyyətə gətirmişdir.

İbtidai siniflərin riyaziyyat kursu kurikulumuna əsasən 5 məzmun xətti üzrə öyrədilir. Nəzəri materiallar məsələ, çalışmalar həllində geniş tətbiq olunur. Çalışmalar vasitəsilə nəzəri material həm möhkəmləndirilir, həm də onun mühüm təcrübi əhəmiyyətə malik olduğu aydınlaşdırılır. Yeni kurikulumda nəzərdə tutulduğu kimi, təkrar hərdən təsadüf şəklində deyil, hər dərsdə aparılır. Bu məqsədlə şagirdlərin fəallığını nəzərə alaraq, dərslikdə, həmçinin əlavə vasitələrdə xüsusi çalışmalar verilmişdir. Eksperimentə cəlb edilmiş müəllimlər ondan yaradıcı şəkildə istifadə edirdilər. Bu

da qazanılmış biliklərin dinamik olmasına, yəni tez-tez işlədilməsinə səbəb olurdu. Burada nəticənin müsbət olmasının əsas səbəbi mövzular arasında, həm də siniflər üzrə öyrədilən materiallar arasında ciddi ardıcıllığın gözlənilməsidir. Bu, kurikulumun zənginliyidir, həm də materialların (mövzuların) şüurlu mənimsənilməsi üçün böyük metodik imkanlar açır.

Kiçik yaşlı məktəblilər riyaziyyat dərslərində daha da fəallaşırlar. Onlarda müstəqillik, axtarıcılıq, təşəbbüskarlıq hiss olunur. Bunlar müəllimlərin peşə ustalığı ilə bağlıdırsa, kurikulumun da müasir tələblərə uyğun hazırlanması ilə əlaqədardır. Riyaziyyatın tədrisində də çətinliklər vardır. Hələ də bəzi müəllimlərin bir qismi kurikulumun tətbiqi ilə işləməkdə çətinliyə rast gəldiklərini söyləyirlər. Çətinliklərin qarşısını almaq  üçün müəllim həm ənənəvi iş formalarından, həm də kurikulum (həmin sinfə aid) əsasında hazırlanmış riyaziyyat dərsliyinə aid metodik vəsaitdə irəli sürülən üsullardan istifadə edərək, məsələlərin təhlilinə diqqəti artırmalıdır.

Riyazi təfəkkürün səviyyəsi şagirdlərin müxtəlif çətinlik dərəcəsində olan məsələləri daha səmərəli metodların tətbiqi ilə həll edə bilmələrində ifadə edilir. Bunun üçün məsələnin məzmununun araşdırılması və digər çalışmaların həlli zamanı onları müstəqil olaraq işlətmək yolu ilə təfəkkürlərini yüksəltmək mümkündür.

Sagird  məsələ həll edərkən ilk növbədə onun məzmununu şüurlu olaraq dərk edir, verilənləri, axtarılan kəmiyyətləri aşkara çıxarır; verilən və axtarılanlar arasındakı münasibətlərə istinad edərək, onun həlli yolunu müəyyənləşdirir, həlli praktik olaraq, yerinə yetirir və nəhayət, cavabı tapır, onun doğruluğunu yoxlayır. Bütün bunlar gərgin zehni əmək, düşüncə, müqayisə, mühakimə, təhlil və tərkib, ümumiləşdirmə tələb edir. Məhz bu məqsədlə də məsələ həlli vacib hesab olunur. Kurukulumun da qarşısında duran əsas vəzifələrdən biri də kiçik yaşlı  məktəblilərin  müstəqil düşünmə qabiliyyətini inkişaf etdirmək, onlarda həllin ən səmərəli üsulunu tapmaq bacarığını yaratmaqdan ibarətdir.

İkinci fəslin sonuncu – dördüncü yarımfəsli "*Şüurluluq və fəallılıq prinsipindən istifadə etməklə təlimin səmərəliliyinin müəyyən olunması*" adlanır. Bu yarımfəsildə deyilir: Hər hansı fəaliyyət planlaşdırılarkən qarşıya məqsəd qoyulur, məqsədin uğurla həyata keçirilməsi üçün vəzifələr irəli sürülür və fəaliyyətə başlanır. Məqsədin reallaşması, yerinə yetirilməsi nəticənin əldə edilməsinə şərait yaradır. Nəticə hansı səviyyədədir? Təbii ki, istənilən sahədə nəticənin yüksək olması diqqət mərkəzində dayanır. Digər fəaliyyətlərdə olduğu kimi, apardığımız tədqiqatın gedişində şüurluluq və fəallılıq prinsipindən istifadə etməklə təlimin keyfiyyətinin yüksəl-

dilməsinə fikir verilirdi. Səmərəliyinin müəyyən edilməsi diqqət mərkəzində idi.

Şüurluluq və fəallıq prinsipindən istifadə etməklə təlimin səmərəliyinin necə təmin olunduğunu bilmək üçün kütləvi sorğudan, müşahidə və söhbətlərdən, dərslərin dinlənilməsindən, təhlil və tərkibdən, induksiya və deduksiyadan, kiçik yaşlı məktəblilərin yaradıcılıq məhsullarından faydalandıq.

Tədqiqat və sorğular göstərdi ki, müəllimlər ibtidai siniflərdə yeni məzmunla işə bu və ya digər dərəcədə hazırlaşmışlar. İbtidai siniflərin təhsil standartları, kurikulumların tələbləri nəzərə alınmaqla ana dili, riyaziyyat, musiqi, təsviri incəsənət, fiziki tərbiyə, texnologiya, həyat bilgisi üzrə məşğələlər respublikanın bir çox məktəblərində günün tələbləri səviyyəsində qurulur. Bu dərsləri aparan müəllimlər ibtidai siniflərdə məşğələləri yeni məzmunda, fəal təlim metodlarından, pedaqoji texnologiyalardan və innovasiyalardan bəhrələnərək qursunlar deyə, treninqlərdən, təkmilləşmə kurslarından keçmişlər. Gənc müəllimlərin bir çoxu, xüsusən Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Gəncə Dövlət Universitetinin, Azərbaycan Müəllimlər İnstitutunun və onun filiallarının məzunları "Təhsilin əsasları" fənni üzrə məşğələlərdə və qismən də fənlərin (riyaziyyatın, ana dilinin, musiqinin, təsviri incəsənətin, rəsmin, texnologiyanın və s. tədrisi metodikası) tədrisi metodikaları üzrə mühazirə və seminarlarda kurikulumlarla, yeni məzmunla işə hazırlanmışlar. Lakin tədqiqatlar, müşahidə və sorğular həm də göstərdi ki, heç də ibtidai sinif müəllimlərinin hamısı interaktiv metodların, təlim texnologiyalarının, İKT-nin imkanlarından bacarıqla istifadə edərək, ibtidai siniflərdə kiçik yaşlı məktəblilərin təlim əməyini səmərəli qurmağı bacarmır, onlarda təlimə marağı lazımınca formalaşdıra bilmirlər. Ayrı-ayrı fənlər üzrə dərslərdə təlimin şüurluluq və fəallıq prinsipinin böyük imkanlarını lazımınca qiymətləndirmirlər. Odur ki, məşğələlərdə kiçik yaşlı məktəblilərin bəziləri proqram materialını şüurlu deyil, əzbər mənimsəyir, dərslərdə fəallıq göstərə bilmirlər. Bu, bir neçə cəhətdən irəli gəlir: 1. Yeni məzmunu, bununla bağlı görülməsi vacib olunan işlərin həyata keçirilməsinin səmərəli yollarını aydın təsəvvür etmirlər. 2. Nəzəri və metodik hazırlıqları kifayət qədər deyildir. 3. Pedaqoji ustalıqları çatışmır.

Şüurluluq və fəallıq prinsipi fəal idraki və praktik fəaliyyət prosesində biliklərin şüurlu surətdə mənimsənilməsini nəzərdə tutur. Dərsdə şüurluluq şagirdlərin, o cümlədən kiçik yaşlı məktəblilərin təlimə müsbət münasibəti, proqram materialının mahiyyətinin onlar tərəfindən başa düşülməsi, qazanılan biliklərin əhəmiyyətinə inamı deməkdir. Şagirdlərin

bilikləri şüurlu şəkildə öyrənməsi bir sıra şərtlərdən və amillərdən asılıdır. Buraya daxildir: təlimin motivləri, idrak fəallığının səviyyəsi və xarakteri, tədris prosesinin təşkili, təlimin tətbiq olunan metod və vasitələri və s. Məktəblilərin fəallığı təlim prosesində intensiv əqli və praktik fəaliyyətdir. Fəallıq biliklərin şüurlu mənimsənilməsinin şərtləri və nəticəsi kimi özünü göstərir.

Eksperimentin ilkin, yəni müəyyənedici mərhələsi dissertasiyada nəzərdən keçirdiyimiz problem baxımından mövcud vəziyyətə aydınlıq gətirdi. Müsbət və nöqsanlı hallar, çatışmayan cəhətlər müəyyənləşdirildi. Eksperimentin müəyyənedici mərhələsinin yekunları onun ikinci, öyrədici mərhələsinə keçməyə imkan verdi. Eksperimental və kontrol ibtidai siniflər müəyyən edildi. Ana dili, riyaziyyat və həyat bilgisi fənləri üzrə mövzular eksperimentin zəruri materialları kimi nəzərdən keçirildi. Eksperimentdə iştirak edən müəllimlərin (istər eksperimental, istərsə də kontrol), siniflərin və şagirdlərin bərabər səviyyələri olmaları təmin olundu. Müəllimlərin iş stajında da əsaslı fərqin olmaması nəzərə alındı.

Eksperimental siniflərdə məqsədyönlü, sistemli, fasiləsiz işlər həyata keçirir, yeri gəldikcə həmin siniflərin müəllimləri ilə məsləhətləşmələr aparılırdı. Bütün bunlar eksperimental sinif şagirdlərinin təlim prosesində şüurluluğunun və fəallığının təmin olunmasına, son nəticədə təlimin keyfiyyətinin yüksəldilməsinə istiqamətlənmişdi. Vaxtaşırı dərslər müşahidə olunur, müəllimlər və şagirdlərlə söhbətlər, sorğular, müsahibələr keçirilirdi.

Dəyişiklikləri izləmək məqsədilə eksperimentin ilkin mərhələsində sinif müəllimlərinə verdiyimiz suallarla bir daha eksperimental və kontrol siniflərin müəllimlərinə müraciət etdik. Alınan nəticələri cədvəl 2.1-də əks etdiririk:

Cədvəl 2.1

Şüurluluq və fəallıq prinsipindən istifadə etməklə ibtidai sinif müəllimlərinin təlimin keyfiyyətinin yüksəldilməsinə nail olmasını əks etdirən göstəricilər:

| Sıra № | Bizi maraqlandıran məsələlər | Səviyyələr | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Yüksək (nəfərlə) | | Orta (nəfərlə) | | Aşağı (nəfərlə) | |
| | | Eks. | Kontr. | Eks. | Kontr. | Eks. | Kontr. |
| 1 | Təhsilin keyfiyyəti dedikdə, bunu necə başa düşürsünüz? | 21 | 9 | 9 | 14 | 1 | 9 |
| 2 | Şüurluluq və fəallıq prinsipi dedikdə nə üçün bu anlayışlar ayrı-ayrılıqda deyil (şüurluluq prinsipi, fəallıq prinsipi), bir yerdə, yanaşı işlədilir? | 19 | 12 | 22 | 9 | - | 11 |
| 3 | Keyfiyyətin idarə olunması nə deməkdir? | 20 | 10 | 9 | 14 | 2 | 8 |
| 4 | Şüurluluq və fəallıq prinsipi hansı məsələləri özündə birləşdirir, başqa sözlə, onun məzmununa nələr daxildir? | 18 | 13 | 10 | 12 | 3 | 7 |
| 5 | Şüurluluq nədir? | 24 | 11 | 6 | 12 | 1 | 9 |
| 6 | Şüurluluğun hansı üstünlükləri vardır? | 22 | 13 | 7 | 13 | 2 | 6 |
| 7 | Fəallıq dedikdə, nə başa düşülməlidir? | 20 | 15 | 21 | 14 | - | 3 |
| 8 | Şüurluluğun meyarları kimi nələr götürülə bilər? | 18 | 14 | 10 | 10 | 3 | 8 |

*Qeyd*: Sorğuya eksperimental siniflərdən 31, kontrol siniflərdən 32 ibtidai sinif müəllimi cəlb edilmişdir.

Cədvəldən göründüyü kimi, aparılmış məqsədyönlü, sistemli və ardıcıl iş nəticəsində eksperimental siniflərin göstəriciləri kontrol siniflərlə müqayisədə xeyli artmışdır. Belə ki, birinci suala ("Təhsilin keyfiyyəti dedikdə, bunu necə başa düşürsünüz?") eksperimental sinfin 31 nəfər ibtidai sinif müəllimindən 21 nəfəri – yüksək; 9 nəfəri – orta və yalnız 1 nəfəri aşağı səviyyədə cavab verdiyi halda, kontrol sinfin müəllimlərindən 9 nəfəri – yüksək; 14 nəfəri – orta və 9 nəfəri – aşağı səviyyədə cavab vermişdir.

Həmçinin altıncı suala ("Şüurluluğun hansı üstünlükləri vardır?") eksperimental sinif müəllimlərinin 2 nəfərindən, kontrol sinif müəllimlərindən yalnız 13 nəfərindən qənaətləndirici cavablar alınmışdır. Cədvəldəki digər göstəricilərlə bağlı da həmin fikirləri irəli sürmək mümkündür.

Eksperimentin yoxlayıcı mərhələsində kiçik yaşlı məktəblilər arasında da sorğu keçirildi. Sorğunun nəticələri ilə cədvəl 2.2-də tanış olmaq mümkündür:

Cədvəl 2.2

Eksperimental və kontrol sinif şagirdlərinin şüurluluq və fəallıq səviyyələrini əks etdirən göstəricilər

| S/ № | Bizi maraqlandıran məsələlər | Səviyyələr | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Yüksək (nəfərlə) | | Orta (nəfərlə) | | Aşağı (nəfərlə) | |
| | | Eks. | Kontr. | Eks. | Kontr. | Eks. | Kontr |
| 1 | Oxu texnikasına və vərdişlərinə hansı səviyyədə yiyələniblər? | 67 | 43 | 54 | 46 | 5 | 36 |
| 2 | Fonetik, morfoloji, leksik, sintaktik, orfoqrafik qaydaları hansı səviyyədə mənimsəmişlər? | 65 | 47 | 58 | 44 | 6 | 34 |
| 3 | Müəllimin tapşırığına əsasən, yaxud özünün seçdiyi əşya, şəkil, mənzərə və hadisəni əsas götürərək, hekayə qurmağı hansı səviyyədə bacarırlar? | 62 | 45 | 56 | 49 | 8 | 31 |
| 4 | Müşahidə etdiyi, yaxud müəllim tərəfindən təqdim olunan əşya və hadisələr haqqında təsviri xarakterli kiçikhəcmli mətnləri hansı səviyyədə yaza bilirlər? | 64 | 46 | 53 | 47 | 9 | 32 |
| 5 | Kiçik yaşlı məktəblilər müsahibinin fikrinə münasibət bildirməyə və öz mövqelərini əsaslandırmağa hansı səviyyədə nail olurlar? | 63 | 51 | 57 | 45 | 6 | 29 |
| 6 | Kəmiyyət münasibətlərini necə anlayır və hansı səviyyədə bu və ya digər kontekstlərdə dəyişənlərin təhlilini aparmağı bacarırlar? | 59 | 50 | 56 | 43 | 11 | 32 |
| 7 | Cəbri qanunauyğunluqları, asılılıqları və funksiyaları hansı səviyyədə ayırd edə bilir və onlardan necə faydalanırlar? | 57 | 54 | 61 | 44 | 8 | 27 |
| 8 | Cəbri rəmzlərdən istifadə edərək cəbri qaydaları hansı səviyyədə yerinə yetirirlər? | 57 | 51 | 60 | 49 | 9 | 26 |
| 9 | Ədədlərin müqayisəsi aparılmaqla bərabərlik və bərabərsizlik anlayışları necə formalaşıb? | 61 | 45 | 54 | 46 | 11 | 34 |
| 10 | Əşyaların həndəsi forması (üçbucaqşəkilli, dördbucaqşəkilli, kvadratşəkilli, dairəşəkilli və s.) və qarşılıqlı vəziyyəti ilə əlaqədar təsəvvürlər hansı səviyyədə formalaşıb? | 64 | 43 | 52 | 50 | 10 | 32 |
| 11 | Canlılarla bağlı təsəvvürlərə hansı səviyyədə malikdirlər? | 62 | 50 | 57 | 49 | 7 | 26 |

Cədvəl 2.2-nin ardı

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 12 | Həyat və sağlamlığa təhlükəli olan mənbə və obyektlərə hansı səviyyədə bələddirlər və onları necə nəzərə alırlar? | 60 | 45 | 60 | 47 | 6 | 33 |
| 13 | Hüquqlarını, azadlıqlarını və vəzifələrini hansı səviyyədə bilirlər? | 63 | 51 | 56 | 45 | 7 | 29 |
| 14 | "Dövlət" məfhumunun mahiyyətini hansı səviyyədə bilirlər? | 65 | 52 | 55 | 48 | 6 | 26 |
| 15 | İnsan mənəviyyatını şərtləndirən amillərə hansı səviyyədə bələddirlər? | 62 | 49 | 62 | 50 | 2 | 25 |

*Qeyd*: Sorğuya eksperimental siniflərdən 126, kontrol siniflərdən 125 ibtidai sinif şagirdi cəlb edilmişdir.

Cədvəllə tanışlıq göstərdi ki, kiçik yaşlı məktəblilərlə məqsədyönlü, sistemli, ardıcıl iş eksperimental qrupların göstəricilərini xeyli yaxşılaşdırmışdır. Belə ki, ikinci suala ("Fonetik, morfoloji, leksik, sintaktik, orfoqrafik qaydaları hansı səviyyədə mənimsəmişdir?") cavab axtarılarkən məlum olmuşdur ki, eksperimental siniflərin 126 nəfər şagirdindən 65 nəfəri – yüksək; 58 nəfəri – orta və yalnız 6 nəfəri aşağı nəticəyə nail olmuşdur. Kontrol siniflərdə bu göstərici aşağıdakı şəkildədir: 47 nəfəri – yüksək; 44 nəfəri – orta və 34 nəfəri – aşağı səviyyədə.

Onuncu sualla ("Əşyaların həndəsi forması (üçbucaqşəkilli, dördbucaqşəkilli, kvadratşəkilli, dairəşəkilli və s.) əlaqədar göstəricilərlə tanış olaq. Eksperimental siniflərdə: yüksək -64 , orta -52, aşağı - 10; kontrol siniflərdə: yüksək - 43 , orta - 50 , aşağı -32.

Cədvəldəki digər göstəricilərlə bağlı da həmin fikirləri (eksperimental siniflərin göstəricilərinin kontrol siniflərin göstəricilərindən yüksək olması) irəli sürmək mümkündür.

Beləliklə, irəli sürdüyümüz fərziyyə özünü doğrultmuş, eksperimental siniflərdə təlimin keyfiyyəti xeyli yüksəlmişdir.

Tədqiqat aşağıdakı **nəticəyə** gəlməyə əsas vermişdir.

Təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə bir çox müxtəlif tədbirlər görülür: Avropada təhsilin keyfiyyətinin akademik qiymətləndirilməsi üzrə komissiya yaradılıb, müxtəlif ölkələrdə, o cümlədən respublikamızda bu məsələlərə həsr olunmuş beynəlxalq elmi konfrans və simpoziumlar keçirilir.

Dünya təcrübəsi əsas götürülməklə və təhsil sistemimizdə vaxtilə mövcud olmuş və hazırda mövcud olan və təcrübədə özünü doğrultmuş iş üslubundan istifadə edərək, onun məzmunu təkmilləşdirilir, təhsilin key-

fiyyətinin idarə edilməsinə xüsusi diqqət yetirilir, təlim prosesi optimallaşdırılır, pedaqoji kadr hazırlığı yaxşılaşdırılır.

Lakin etiraf etmək lazımdır ki, bütün bunlara baxmayaraq, təhsilin keyfiyyəti konsepsiyası hələ ki yetərincə təşəkkül tapmamışdır: yanaşmalar müəyyənləşdirilir, keyfiyyətin göstəriciləri, cəhətləri formalaşdırılır, meyarlarına aydınlıq gətirilir. Odur ki, hələ təhsil sistemində yeniləşmələrin aparılmasına, bəzi çatışmazlıqların aradam qaldırılmasına da ehtiyac vardır.

Təhsili o zaman keyfiyyətli hesab etmək olar ki, nəinki şagirdlər, həm də təhsil prosesinin üzvləri olan müəllimlər də müəyyən nailiyyətlərə malik olsunlar. Başlıca məqsəd şagirdləri, o cümlədən kiçik yaşlı məktəbliləri təkcə biliklərə yiyələndirməkdən deyil, əmək vərdişləri, yaşamaq, dəyişən dünyaya uyğunlaşmaq bacarıqlarının formalaşdırılmasından ibarətdir.

Dərsin, tədris məşğələlərinin keyfiyyətinin yüksəldilməsində təlimin prinsiplərinin, o cümlədən elmilik, sistemlilik, əyanilik və s. prinsiplərin rolu böyükdür. Bu prinsiplərin sırasında şüurluluq və fəallıq prinsipi özünəməxsus əhəmiyyət daşıyır.

Təlimin şüurluluq və fəallıq prinsipi müəyyən tarixə malikdir. Bu prinsip pedaqogika tarixində doğmatik təlimin əleyhinə olaraq meydana gəmişdir.

Təlim prosesində ilk növbədə biliklərin şüurlu mənimsənilməsinin daha ümumi əlamətləri diqqət mərkəzində dayanmalıdır:

-şagirdlər öz biliklərini səlis, aydın və ifadəli çatdırmağı bacarmalıdırlar. "Bilirəm, fəqət deyə bilmirəm" ifadəsi biliyin mövcud olmaması əlamətidir;

-şüurluluq şagirdlərin proqram materialına müsbət münasibətdə, həmin materiala təhsilalanların hansı səviyyədə maraq göstərib-göstərməsində ifadə olunur;

-tədris materialının şüurlu mənimsənilməsinin əlaməti olaraq müstəqilliyin dərəcəsi götürülür. Müstəqilliyin səviyyəsi nə qədər yüksək olarsa, biliklər bir o qədər şüurlu mənimsənilər.

Biliklərin şüurlu və fəal mənimsənilməsində marağın rolu böyükdür. Şüurluluq və fəallığın formalaşdırılması prinsipinin həyata keçirilməsində təkcə öyrənilən materialın məzmununa deyil, həmçinin təlim prosesinin özünə maraq yaradılmalıdır. Məktəblilərə təkcə yeni informasiya barədə məlumat almaq deyil, həm də təhsil almaq maraqlıdır, onlara idrak prosesinin özü maraqlı olmalıdır. Təlimin şüurluluq və fəallıq prinsipi pedaqoji rəhbərliyin şagirdlərin şüurlu, fəal, yaradıcı fəaliyyəti ilə qarşılıqlı əlaqəsini nəzərdə tutur. Şüurluluq təlimin məqsəd və vəzifələrinin dərk olunmasında,

faktları tam bilməkdə, materialı dərindən anlamaqda, öyrənilən materialın mahiyyətinə nüfuz etməkdə, onu şüurlu şəkildə təcrübəyə bacarıqla tətbiq etməkdə meydana gəlir. Təlimin şüurluluğunun əsasında şagirdlərin əqli, fikri, yaxud nitq-fikri fəallığı dayanır. Fəqət iradi və fiziki fəallığın rolunu unutmaq olmaz. Fəallıq fikrin və fəaliyyətin müstəqilliyi ilə sıx surətdə bağlıdır, qərarların qəbul olunmasında, öz mövqeyini müdafiə etməkdə böyük rol oynayır.

Təlimin şüurluluq və fəallıq prinsipi pedaqoji rəhbərliyin şagirdlərin şüurlu, fəal, yaradıcı fəaliyyəti ilə qarşılıqlı əlaqəsini nəzərdə tutur. Şüurluluq təlimin məqsəd və vəzifələrinin dərk olunmasında, faktları tam bilməkdə, materialı dərindən anlamaqda, öyrənilən materialın mahiyyətinə nüfuz etməkdə, onu şüurlu şəkildə təcrübəyə bacarıqla tətbiq etməkdə meydana gəlir. Təlimin şüurluluğunun əsasında şagirdlərin əqli, fikri, yaxud nitq-fikri fəallığı dayanır. Fəqət iradi və fiziki fəallığın rolunu unutmaq olmaz. Fəallıq fikrin və fəaliyyətin müstəqilliyi ilə sıx surətdə bağlıdır, qərarların qəbul olunmasında, öz mövqeyini müdafiə etməkdə böyük rol oynayır.

Məktəblilərin fəallığının ən mühüm cəhəti təlim prosesində özünənəzarət və özünəqiymətin mövcudluğudur. Odur ki, müəllimin mühüm vəzifələrindən biri məktəblilərdə belə fəaliyyətə tələbatı və vərdişləri formalaşdırmaqdan ibarət olmalıdır. Müasir təlim texnologiyaları arasında özünənəzarət və özünüqiymətləndirmə ən zəruri elementdir, biliklərin şüurlu və fəal mənimsənilməsində xüsusi rol oynayır.

Tədqiqatın əsas məzmunu, başlıca elmi ideyaları, alınan nəticələr aşağıdakı çap işlərində öz əksini tapmışdır:

1. Təlimin şüurluluq prinsipinin mahiyyəti, məzmunu və tətbiqinin səmərəli yolları // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2011, № 1, s. 166-169

2. Təlim prosesində şüurluluq və fəallılıq prinsipindən istifadə üzrə işin bəzi məsələləri / "Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri" mövzusunda beynəlxalq konfransın materialları. Naxçıvan, 2011, s. 153 154

3. Şüurluluq və fəallıq prinsipi təlimin səmərəliliyini artıran kimi // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri (fundamental, humanitar və təbiət elmləri seriyası), 2011, № 2, s. 199-202

4. Elmi-pedaqoji ədəbiyyatda təlimin şüurluluq və fəallıq prinsipinin qoyuluşu // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2011, № 2, s. 206-209

5. Şüurluluq və fəallıq prinsipinin fəal tətbiqi şəraitində şagirdlərin təlim fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi (tezis) / "Təhsil

sistemində monitorinq və qiymətləndirmənin yeri" mövzusunda respublika elmi-praktik konfransın materialları. Bakı, 27 aprel 2012-ci il. Bakı, 2012, s. 153-155

6. Şüurluluq və fəallıq prinsipindən istifadə etməklə ana dili təliminin keyfiyyətinin yüksəldilməsi imkanları // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2012, № 1, s. 25-27

7. Şüurluluq və fəallıq prinsipindən istifadə etməklə riyaziyyat təliminin keyfiyyətinin yüksəldilməsi // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2013, № 1, s. 74-77

8. Şüurluluq və fəallılıq prinsipindən istifadə etməklə təlimin səmərəliliyinin müəyyən olunması // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2013, № 3, s. 16-20

9. Pedagogues of the principle of consciousness and activity in learning // Aslan Social Science. Canadian Center of Science and Education. Mart, 2014, № 1, p.p. 143-149 (Pedaqoqlar təlimin şüurluluq və fəallıq prinsipi haqqında // Sosil Elmlər Dərgisi. Kanada Elm və Təhsil Mərkəzi. 2014, mart, №1, s.143-149)

**Khazangul Suleyman kizi Ramazanova**

**The principle of consciousness and activity as a means of improving the quality of learning in primary school**

**Summary**

The thesis consists of an introduction, two chapters, including 9 paragraphs, conclusion and bibliography,. In the introduction, in the first place the actuality of the study, observed the object and subject of study, the purpose, the working hypothesis, methodological principles, and methods. Information is given about the challenges facing the research, scientific originality, theoretical and practical relevance, academic positions displayed on the protection of approbation. The first chapter of the thesis is called "Theoretical and general issues to improve the quality of education by using the principle of consciousness and activity." This chapter consists of five sections. In paragraphs draws attention to the nature and content of the principle of consciousness and activity learning; psychological problems; statement of the principle of consciousness and activity training in scientific and pedagogical literature and textbooks "Pedagogy", the problem of increasing the quality of education. In addition, the quality of learning in this chapter is seen as an important educational problem, and the principle of consciousness and activity as the principle of improving the effectiveness of training. The second chapter is called "Opportunities for improving learning efficiency through the use of the learning process of the principle of consciousness and activity, and effective ways to implement these features. This chapter consists of four sections. In some sections, are considered the possibility of subjects native language and cognition of the world from the point of view of the problem studied in the dissertation and effective ways of learning. This chapter also highlights the problem of improving the quality of teaching mathematics, using the principle of consciousness and activity, the problem of determining the effectiveness of training using the principle of consciousness and activity. Thesis and concludes with a list of references.

**Хазангюль Сулейман кызы Рамазанова**

## Принцип сознательности и активности как средство повышения качества обучения в начальных классах

### Резюме

Диссертация состоит из введения, двух глав, включающих 9 параграфов, вывода и списка используемой литературы.

Во введении в первую очередь обосновывается актуальность исследования, отмечаются объект и предмет исследования, цель, рабочая гипотеза, методологические основы, и методы исследования. Дается информация об задачах, стоящих перед исследованием, научной новизне, теоретическом и практическом значении, научных положениях, выводимых на защиту, об апробации.

Первая глава диссертации называется «Теоретические и общие проблемы повышения качества обучения путем использования принципа сознательности и активности». Эта глава состоит из 5 параграфов. В параграфах обращается внимание на сущность и содержание принципа сознательности и активности обучения; психологические задачи проблемы; постановку принципа сознательности и активности обучения в научно-педагогической литературе и в учебниках «Педагогика», проблемы повышения качества обучения. Кроме того, повышение качества обучения в этой главе рассматривается как важная педагогическая проблема, а принцип сознательности и активности как принцип повышения эффективности обучения.

Вторая глава диссертации называется «Возможности повышения эффективности обучения путем использования в процессе обучения принципа сознательности и активности и эффективные пути осуществления этих возможностей. Эта глава состоит из 4 параграфов. В отдельных параграфах рассматриваются возможности предметов Родной язык и Познание мира с точки зрения исследуемой в диссертации проблемы и эффективные пути обучения. В этой главе также освещаются проблемы повышения качества обучения математике, пользуясь принципом сознательности и активности; проблемы определения эффективности обучения пользуясь принципом сознательности и активности.

Диссертация завершается выводом и списком использованной литературы.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

ХАЗАНГЮЛЬ СУЛЕЙМАН кызы РАМАЗАНОВА

# ПРИНЦИП СОЗНАТЕЛЬНОСТИ И АКТИВНОСТИ КАК СРЕДСТВО ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ОБУЧЕНИЯ В НАЧАЛЬНЫХ КЛАССАХ

5804.01 – Общая педагогика, история педагогики и образования

А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание научной степени доктора философии по педагогике

БАКУ - 2014